Siz, əziz Qazaxlılar! Burada həm öz torpağınızı qoruyursunuz, həm Azərbaycanı qoruyursunuz. Siz bütün Azərbaycan xalqının dayağısınız.
Heydər Əliyev.



# GÖYƏZƏN

QAZAX RAYONUNUN İCTİMAİ - SİYASİ QƏZETİ

№ 22-24 (9254-9256) | 29 dekabr 2017-ci il | Qəzet 1932-ci ildən çıxır | Qiyməti 50 qəpik

## Ulu öndər Heydər Əliyevin əziz xatirəsi rayonumuzda ümumxalq sevgisi ilə anılmışdır



**Qeyri-adi şəxsiyyəti, siyasət və dövlət xadiminə xas olan böyük istedadı ilə fərqlənən ümummilli lider Heydər Əliyev hələ sağlığında canlı əfsanəyə çevrilmişdir. Azərbaycanın özü qədər əbədi olan dahi şəxsiyyət hər bir vətəndaşın qəlbində böyük məhəbbətlə anılır, sevilir, yaşanır və əbədi yaşayacaqdır.**

Qazax rayonunda müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı ulu öndər Heydər Əliyevin anım günü qeyd olunmuşdur.

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov ümummilli lider Heydər Əliyevin adını daşıyan parka gəlmiş, dahi şəxsiyyətin abidəsi önünə gül dəstələri qoyaraq əziz xatirəsini ehtiramla yad etmişdir.

Hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, əmək kollektivləri, ağsaqqallar, müharibə və əmək veteranları, tələbələr, məktəblilər, ictimaiyyətin müxtəlif təbəqələrinin nümayəndələri, minlərlə rayon sakini ulu öndərin abidəsini ziyarət etmiş, gül dəstələri qoymuş, öz sevgi və ehtiramlarını bildirmişlər.



Sonra Heydər Əliyev Mərkəzində dahi şəxsiyyətin həyat və fəaliyyətini əks etdirən filmə baxmış, kitab və jurnallardan ibarət sərgi ilə tanış olmuş, öz ürək sözlərini bildirmişlər.

Qeyd olunmuşdur ki, Azərbaycan xalqı fəxr edə bilər ki, onun tarixi və taleyi dahi şəxsiyyət Heydər Əliyevin adı və ideyaları ilə bağlıdır. Vətənimiz üçün çox mürəkkəb bir dövrdə xalqına arxa olan ulu öndər Heydər Əliyev Azərbaycanın inkişaf tarixində silinməz izlər qoymuşdur. Onun zəhməti nəticəsində Azərbaycan dünyanın siyasi meydanında öz sözünü deyə bilən qüdrətli dövlətə çevrilmişdir.

"Bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib" - deyən ümummilli liderimizin ən başlıca keyfiyyəti xalqımıza ürəkdən bağlılığı, milli ideyanı yaşadıb inkişaf etdirməsi idi.

Qeyd olunmuşdur ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş bu inkişaf hazırda Ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam edir. Bunun nəticəsidir ki, bu gün Azərbaycan dünyanın ən inkişaf ölkəsinə çevrilmişdir.

## YAP Qazax rayon təşkilatında Heydər Əliyevin əziz xatirəsi yad olunmuşdur

**Ulu öndər Heydər Əliyevin anım günü ilə əlaqədar Yeni Azərbaycan Partiyası (YAP) Qazax rayon təşkilatında tədbir keçirilmişdir. Tədbir iştirakçıları ümummilli liderin təşkilatın inzibati binasında yerləşən büstü önünə gül dəstələri qoymuş, əziz xatirəsini böyük ehtiramla anmışlar.**



Ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən video-çarxın nümayişi ilə başlayan tədbirdə dahi şəxsiyyətin Azərbaycanın müstəqil dövlət kimi formalaşmasında həyata keçirdiyi layihələrə, gördüyü işlərə, göstərdiyi misilsiz xidmətlərə bir daha nəzər salınmışdır.

Sonra ulu öndərin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad olunmuşdur.

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov tədbirdə çıxış edərək bildirmişdir ki, hələ öz sağlığında xalqın ümummilli lideri səviyyəsinə yüksələn möhtərəm Heydər Əliyev heç vaxt unudulmayacaq, daim Azərbaycan xalqının qəlbində yaşayacaqdır.

Qeyd etmişdir ki, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim ümummilli lider Heydər Əliyev ölkəmizin iqtisadi və siyasi xəttini müəyyənləşdirmiş, respublikamızın inkişaf etməsi üçün əlindən gələni əsirgəməmişdir. Bu gün ümummilli liderin müəyyən etdiyi proqram ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən qətiyyətlə həyata keçirilir. Bunun nəticəsidir ki, bu gün Azərbaycanda dünya əhəmiyyətli layihələr həyata keçirilir və ölkəmiz regionda söz sahibinə çevrilmişdir. Bildirmişdir ki, ümummilli lider Heydər Əliyevin xatirəsi xalqımızın qəlbində əbədi yaşayır.

YAP Qazax rayon təşkilatının sədri Həmid Pənahov geniş məruzə ilə çıxış edərək ümummilli liderin həyat və fəaliyyətindən söz açmışdır. Qazax rayonunda ulu öndərin dəfələrlə olmasından, ulu öndərin siyasi hakimiyyətdə olduğu illərdə həyata keçirilən quruculuq, abadlıq işlərindən, müstəqil Azərbaycanın qurulması sahəsində göstərdiyi xidmətlərdən danışmışdır.

Bakı Dövlət Universiteti Qazax filialının direktoru, professor Vüsət Əfəndiyev, YAP Qazax rayon təşkilatının Şura üzvü Səfurə Rəhimova, YAP Qazax rayon təşkilatı İdarə Heyətinin üzvü Anar Nəbiyev, YAP Qazax rayon təşkilatı Qadınlar Şurasının üzvü Yeganə Göyüşlü, YAP Qazax rayon təşkilatı Gənclər Birliyi "HGC GROUP" MMC ərazi ilk partiya təşkilatının sədri Zaur Əliyev, Suvarma Sistemləri İdarəsinin rəisi Abbas Göyüşov, Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialının sədri, Əməkdar İncəsənət Xadimi Barat Vüsal çıxış edərək ümummilli lider Heydər Əliyevin müdrik siyasətə, dönməz əqidəyə və tarixi uzaqgörənliyə malik şəxsiyyət kimi müasir Azərbaycan dövlətinin qurulması istiqamətində atdığı addımlardan bəhs etmişlər.

## Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmov Qazax rayonunda olmuşdur

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 aprel 2016-cı il tarixli sərəncamına əsasən Bakı Dövlət Universitetinin Qazax filialı yaradılmışdır.**



Ötən 1 il ərzində filialda böyük işlər görülmüş, maddi-texniki bazası möhkəmləndirilmiş, elmi potensialı zənginləşdirilmiş, qəbul olunanların sayı əhəmiyyətli dərəcədə artmışdır. Eyni zamanda, Qazax şəhərində filial üçün tələbə şəhərciyinin salınması nəzərdə tutulmuşdur. Şəhərcikdə yeni tədris korpuslarının, tələbə yataqxanalarının tikilməsi üçün 6 hektar yer ayrılmışdır. Yaxın vaxtlarda tələbə şəhərciyinin tikintisinə başlanılacaqdır.

Bu məqsədlə Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmov Qazax rayonunda olmuşdur. Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov və BDU-nun Qazax filialının direktoru, professor Vüsət Əfəndiyevlə birlikdə yeni salınacaq şəhərcik üçün ayrılmış torpaq sahəsinə baxmışlar. Məlumat verilmişdir ki, filial üçün həmin ərazidə tədris korpusları, tələbə yataqxanaları inşa ediləcəkdir. Abel Məhərrəmov ayrılmış sahədə korpusların, yataqxanaların, idman meydançasının və əlavə tikililərin necə yerləşdirilməsi ilə maraqlanmış, öz tapşırıq və tövsiyələrini vermişdir.

Sonra Abel Məhərrəmov Qazax filialına gələrək burada yaradılmış tədris şəraiti ilə, yeni laboratoriyalarla yaxından tanış olmuş, filialdakı maddi-texniki bazadan razı qaldığını bildirmişdir.

## Şəhid Fərman Yolçuyevin doğum günü qeyd olunmuşdur



**Şəhid Yolçuyev Fərman Sabit oğlunun anadan olmasının 49-cu ildönümü ilə əlaqədar tədbir keçirilmişdir. Şəhidlərin dəfn olunduğu Hüseynbəyli kənd qəbiristanlığında keçirilən tədbirdə şəhidin ruhuna dua oxunmuş, qəbri üstünə gül dəstələri qoyulmuşdur.**

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov mərasimdə çıxış edərək Fərman Yolçuyevin keçdiyi döyüş yolundan danışmış, dövlətimiz tərəfindən şəhidlərə, şəhid ailələrinə göstərilən diqqət və qayğıdan söz açmışdır. Qeyd etmişdir ki, torpaqlarımızın ərazi bütövlüyü uğrunda öz canından keçən Vətən oğul və qızları hər cür hörmət və diqqətə layiqdirlər.

Şəhidin polis və döyüş yoldaşlarından Nəsib Nəsibov, yeni qəsəbədəki mənzil istismar sahəsinin rəisi Novruz Hüseynov, Bağanıs Ayrım kənd ibtidai məktəbin direktoru Əsgər Hüseynov və başqaları çıxış edərək rayon rəhbərliyi tərəfindən şəhidlərimizə verilən yüksək dəyərdən, onların ailə üzvlərinə göstərilən diqqət və qayğıdan, Şəhidlər Xiyabanlarında aparılan bərpa və abadlıq işlərindən danışmış, şəhidlərin ölməzliyindən, onların ən uca zirvəyə yüksəlməsindən söz açmışlar.

Şəhidin qardaşı Firdovsi Yolçuyev çıxış edərək onlara göstərilən diqqət və qayğıya görə Ölkə Başçısı İlham Əliyevə şəhid ailələri adından öz adından dərin minnətdarlığını bildirmişdir. Qardaşının xatirəsinin əziz tutulmasına və belə yüksək səviyyəli tədbirin təşkilinə görə Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova sonsuz təşəkkürlərini çatdırmışdır.

Qeyd edək ki, şəhid Yolçuyev Fərman Sabit oğlu 20 dekabr 1968-ci ildə Qazax rayonunun Aşağı Əskipara kəndində anadan olmuşdur. 1984-cü ildə Aşağı Əskipara kənd orta məktəbini bitirdikdən sonra Qazax rayon Kənd Təsərrüfatı Texnikumuna qəbul olmuş və 1986-cı ildə texnikumu bitirmişdir. 1987-1989-cu illərdə keçmiş sovet ordusu sıralarında xidmət etmişdir. 1990-cı ildə könüllü müdafiə dəstəsinin tərkibində erməni işğalçılarına qarşı döyüşlərdə iştirak etmişdir.

1991-ci ildə Qazax rayon Polis şöbəsinə işə qəbul edilərək polis çavuşu vəzifəsində çalışmışdır. 1992-ci ilin may ayının 10-da qəhrəmancasına şəhid olmuşdur.

## Qazaxda iri investisiya layihələri həyata keçiriləcək

**Respublika Prezidenti İlham Əliyevin tapşırığına əsasən respublikamızda kənd təsərrüfatının inkişaf etdirilməsi üçün geniş imkanlar açılmışdır. Ölkə Başçısının irəli sürdüyü proqrama uyğun olaraq Qazax rayonunda da bu sahənin inkişafı istiqamətində məqsədyönlü işlər həyata keçirilir. Kənd təsərrüfatına investisiyaların qoyulması, sahibkarlar üçün münbit şəraitin yaradılması Qazaxda görülən işləri özündə əks etdirir. Bunun nəticəsidir ki, Qazax kənd təsərrüfatının ınkişaf etdirilməsi üçün ən cəlbedici rayona çevrilmişdir.**



Amerika Birləşmiş Ştatları - İsrail iri şirkətlərin kənd təsərrüfatı üzrə təmsilçisi Tenqiz Ciqianın başçılıq etdiyi nümayəndə heyəti rayonumuzda olmuşdur. Qonaqlar Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babşovla görüşərək rayon rəhbərliyi ilə fikir mübadiləsi aparmış, rayonun kənd təsərrüfatı sahəsinə investisiya qoymaq imkanlarını müzakirə etmişlər.

Sonra qonaqlar rayonumuzla tanış olmuşlar. Fəxri qazaxlılar parkı ilə tanışlıqdan sonra Şəhidlər Xiyabanına gələrək şəhidlərin ruhunu böyük ehtiramla yad etmişlər. Daha sonra Qazax Tarix-Diyarşünaslıq Muzeyində rayonumuzun tarixi, mədəniyyəti, iqtisadiyyatı ilə tanış olmuşlar.

Nümayəndə heyətinin üzvü İmamverdi Cəfərov Qazaxda aparılan işləri yüksək qiymətləndirərək rayonda bütün sahələrin inkişaf etdiyini bildirmişdir.

Sinqapur yüksək texnologiyalı kənd təsərrüfatı layihələrinin rəhbəri, "Grousse Solar Energy" şirkətinin Azərbaycandakı təmsilçisi Cəmilə Rəhimova Qazax rayonunda irimiqyaslı investisiya layihələrinin həyata keçiriləcəyini bildirmişdir. Bu layihələrin rayonun yararsız torpaqlarında aparılacağını və 103 hektar sahədə istixana salınacağını qeyd etmişdir. Onu da bildirmişdir ki, Qazax sahibkarlığın inkişaf etdirilməsi üçün ən əlverişli rayondur.

## Qazaxda keçirilən tibbi aksiyada 275 rayon sakini iştirak etmişdir

**"ASAN xidmət" və Sağlam Ailə Tibb Mərkəzinin birgə təşkilatçılığı ilə səyyar tibbi müayinə aksiyasına keçirilmişdir.**



Heydər Əliyev Mərkəzində səyyar tibbi xidmətin yüksək səviyyədə həyata keçirilməsi və vətəndaşların aksiyadan rahat şəkildə istifadə etmələri üçün lazım gələn bütün hazırlıq işləri görülmüş, lazımi avadanlıqlarla təmin edilmiş və yüksək şərait yaradılmışdır.

Aksiyada vətəndaşlar terapevt, endokrinoloq, kardioloq, ginekoloq, dermatoloq, pediatr, oftalmoloq, USM, EKQ və qanda şəkərin təyini müayinələrindən yararlanmışlar.

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov Heydər Əliyev Mərkəzinə gələrək aksiyada vətəndaşlara göstərilən tibbi xidmətlə maraqlanmış, aksiyanın xidmətindən istifadə etmişdir.

Sağlam Ailə Tibb Mərkəzinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Nigar Rüstəmli yaradılan yüksək şəraitdən razı qaldığını qeyd edərək tibbi aksiyanın həyata keçirilməsində göstərdiyi dəstəyə və qonaqpərvərliyə görə rayon rəhbərliyinə öz təşəkkürünü bildirmişdir.

**Elçin İSMAYIL**

# QAZAXDA YENİ BAĞÇALAR İSTİFADƏYƏ VERİLMİŞDİR

## Cəfərli kənd uşaq bağçası



**Fəaliyyətə başladığı ilk gündən sərhəd kəndlərini həmişə diqqətdə saxlayan rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşovun qayğısı sayəsində Cəfərli kənd uşaq bağçasına yeni bir həyat verilmişdir. 1992-ci ildən cəmi iki darısqal otaqda fəaliyyət göstərən bağça binası yararsız hala düşmüşdü.**

Rayon rəhbərliyi bunu nəzərə alaraq bağça üçün əlavə otaqlar ayrılması və əsaslı şəkildə təmir olunması barədə göstəriş vermişdir. Rayon rəhbərliyinin tapşırığına əsasən bağçanın yerləşdiyi binada əlavə otaqlar ayrılmış və əsaslı şəkildə təmir edilmişdir. Bağçanın fəaliyyət göstərməsi üçün lazım olan bütün infrastrukturlar yaradılmış və ən müasir görkəmə salınmışdır. Yataq və oyun otağı, dəhliz, anbar, mətbəx, sanitar qovşağı, istilik sistemi, müdir otağı ən yüksək səviyyədədir. Bir sözlə, sərhəd kəndində böyük şəhərlərdə olan bağçalardakı kimi şərait yaradılmışdır.

Bağçanın açılış mərasimində Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, RİHB Aparatının məsul işçiləri, idarə, müəssisə və təşkilat rəhbərləri, bağça müdirləri, müəllim və valideynlər, kənd sakinləri, KİV nümayəndələri iştirak etmişdir.

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov tamamilə yenidən qurulmuş Cəfərli kənd uşaq bağçasının açılış mərasimində çıxış edərək körpə fidanları, onların valideynlərini və müəllimləri, kənd sakinlərini bağçanın istifadəyə verilməsi münasibətilə səmimi qəlbdən təbrik edərək gözaydınlığı vermişdir.

Cəfərli kənd uşaq bağçasının müdiri Fiqura Yunisova, ağsaqqallardan Sabir Vəliyev, Mehman Nəbiyev, Seyfəddin Vəliyev, Əməkdar müəllim Xatın Hüseynxanova çıxış edərək uşaqlar üçün yaradılan bu gözəl şəraitə görə Respublika Prezidenti İlham Əliyevə müəllim və valideynlər, bütün kənd sakinləri adından öz dərin minnətdarlıqlarını bildirmişlər. Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova ən xoş arzularını çatdırmışlar.

Sonda Rəcəb Babaşov bir daha xeyir-dua verərək bağça kollektivinə səmərəli fəaliyyət arzulamış və ən xoş arzularını çatdırmışdır.

## Şəhər 1 saylı körpələr evi-uşaq bağçası

**Əsaslı şəkildə təmir edilən Kosalar kəndindəki 2 və 3 saylı körpələr evi-uşaq bağçaları, Xanlıqlar kənd körpələr evi-uşaq bağçası, Daş Salahlı kəndindəki 2 saylı uşaq bağçası və 3 saylı körpələr evi-uşaq bağçası, Cəfərli kənd uşaq bağçasından sonra Qazax şəhərində 100 yerlik 1 saylı körpələr evi-uşaq bağçasının açılışı olmuşdur.**

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov açılış mərasimində çıxış edərək. yeni bağçanın istifadəyə verilməsi münasibətilə müəllimlərə, valideynlərə, körpə fidanlara gözaydınlığı vermiş, ən xoş arzularını çatdırmışdır. Ölkəmizdə Respublika Prezidenti İlham Əliyev tərəfindən uşaqlara göstərilən diqqət və qayğıdan, onların sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı həyata keçirilən məqsədyönlü tədbirlərdən danışmışdır.



Bakı Dövlət Universiteti Qazax filialının direktoru, professor Vüsət Əfəndiyev, rayon Maliyyə İdarəsinin rəisi Novruz Abdullayev, Azərbaycan Respublikası Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin nümayəndəsi Şəmil Allahverdiyev, Respublikanın Əməkdar Bədən Tərbiyəsi və İdman xadimi Ramiz Tağıyev, rayon Mərkəzi Xəstəxanasının baş həkim əvəzi Sevda Məmmədova çıxış edərək rayonumuzda həyata keçirilən genişmiqyaslı abadlıq işlərinə, eləcə də uşaqlar üçün yaradılan bu gözəl şəraitə görə Respublika Prezidenti İlham Əliyevə müəllim və valideynlər, bütün rayon sakinləri adından öz dərin minnətdarlıqlarını bildirmiş, ən xoş arzularını çatdırmışlar.

1 saylı körpələr evi-uşaq bağçasının müdiri İradə Mustafayeva çıxış edərək müəllimlər və valideynlər adından səmimi təbriklərini çatdırmış, yaradılan bu yüksək şəraitə görə Ölkə Başçısına, rayon rəhbərinə bütün müəllim və valideynlər adından öz dərin minnətdarlığını bildirmişdir. \

Uşaq bağçası binasının rəmzi açılışını bildirən qırmızı lent kəsildikdən sonra tədbir iştirakçıları yeni bağçada yaradılan şəraitlə, yataq otaqları, mətbəx, oyun otaqları, musiqi otaqları, idman otağı ilə tanış olmuş, yüksək qiymətləndirmişlər. 3 mərtəbədən ibarət olan yeni bağçada 5 qrup fəaliyyət göstərəcəkdir ki, onlardan 3-ü böyük, 2-si azyaşlı qruplardır.

## Daş Salahlı kənd 2 və 3 saylı körpələr evi-uşaq bağçaları



**Qazax rayonunun Daş Salahlı kəndindəki 20 yerlik 2 saylı uşaq bağçası və 35 yerlik 3 saylı körpələr evi-uşaq bağçası Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşovun təşəbbüsü ilə "Akkord" Sement Zavodu tərəfindən əsaslı təmir edilərək yenidən qurulmuşdur.**

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov bağçaların açılış mərasimində çıxış edərək bildirmişdir ki, Azərbaycanda uşaqların sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı həyata keçirilən siyasətin əsasını ulu öndər Heydər Əliyev qoyub. Həmin siyasət dövlətimizin başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Uşaqların sağlam və xoşbəxt böyüməsi üçün respublikanın birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən də hərtərəfli və məqsədyönlü işlər görülür.

Daş Salahlı kənd 2 saylı uşaq bağçasının müdiri Aybəniz Kərimova, tərbiyəçi Çiçək Vəliyeva, 3 saylı körpələr evi-uşaq bağçasının müdiri Ramella Abdürrəhmanova, kənd ağsaqqalı Fərhad Qocamanov, valideyn Flora Həsənova çıxış edərək uşaqlar üçün yaradılan bu gözəl şəraitə görə Respublika Prezidenti İlham Əliyevə müəllim və valideynlər, bütün kənd sakinləri adından öz dərin minnətdarlıqlarını bildirmişlər. Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova və "Akkord" Sement Zavodunun direktoru Elçin Qasımova ən xoş arzularını çatdırmışlar.

Uşaq bağçası binalarının rəmzi açılışını bildirən qırmızı lent kəsildikdən sonra tədbir iştirakçıları əsaslı şəkildə təmir olunan bağçalarla tanış olmuşlar. Sonra Rəcəb Babaşov hər iki bağçada çalışan kollektivlə görüşmüş, tapşırıq və tövsiyələrini vermişdir.

Tədbirdə "Akkord" Sement Zavodu tərəfindən körpə fidanlara hədiyyələr təqdim olunmuşdur.

Açılış mərasimindən sonra Rəcəb Babaşov zavodun rəhbərliyi ilə birlikdə kənddəki 1 saylı uşaq bağçasına gəlmiş və vəziyyətlə yerində tanış olmuşdur. Məlumat verilmişdir ki, bağça binası olduqca yararsız haldadır və əsaslı təmirə ciddi ehtiyac var.

"Akkord" Sement Zavodunun direktoru Elçin Qasımov bu bağça binasının da təmir olunmasını öz öhdəsinə götürmüşdür. Bildirmişdir ki, yaxın vaxtlarda bina əsaslı şəkildə təmir ediləcəkdir.

**Nüşabə HÜSEYNOVA**

## "İlin bağçası" müsabiqəsi keçirilmişdir

**Qazax şəhərində fəaliyyət göstərən bağçalar arasında ilk dəfə olaraq genişmiqyaslı şəkildə vətənpərvərlik ruhunda "İlin bağçası" müsabiqəsi keçirilmişdir. Qazax rayon İcra Hakimiyyətinin təşəbbüsü və təşkilatçılığı ilə keçirilən müsabiqənin əsas məqsədi bağçaların və kollektivlərinin yaradıcılıq imkanlarının, dünyagörüşlərinin artırılması istiqamətində görülən işləri qiymətləndirmək, sağlam rəqabəti və bunun fonunda uğurlu inkişafı təmin etməkdir.**

Müsabiqədə Qazax şəhər 1 saylı körpələr evi-uşaq bağçasının "Zəfər", şəhər 2 saylı uşaq bağçasının "Bənövşə", şəhər 3 saylı körpələr evi-uşaq bağçasının "Səma", şəhər 4 saylı uşaq bağçasının "Lalələr", şəhər 5 saylı körpələr evi-uşaq bağçasının "Göyəzən" və şəhər 6 saylı körpələr evi-uşaq bağçasının "Günəş" komandaları iştirak etmişdir. 4 nominasiya: şeir, mahnı, rəqs və səhnəciklər üzrə keçirilən müsabiqədə komandalar bir-birindən maraqlı çıxışlar nümayiş etdirmişlər.

Balaca fidanların ixtiyarına verilmiş Mədəniyyət Mərkəzinin böyük zalı al-əlvan şarlarla, gül-çiçəklə bəzədilmişdi. Bir-birindən gözəl, rəngarəng geyimli gül balaların üzlərində təbəssüm,



könüllərində xoş ovqat hissi vardı. Sıra ilə düzülmüş körpə balalar öz çıxışlarını nümayiş etdirmək üçün səbirsizliklə gözləyir, öz şıltaq hərəkətləri ilə ətrafa sevinc bəxş edirdilər.

Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə aparıcılar çıxış edərək ölkəmizdə, eləcə də rayonumuzda körpə balaların azad və firəvan şəkildə böyümələri üçün göstərilən diqqət və qayğıdan söz açmış, münsiflər heyətinin üzvlərini və komandaları tədbir iştirakçılarına təqdim etmişlər.

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov giriş sözü ilə çıxış edərək bildirmişdir ki, Azərbaycanda uşaq siyasəti ilə bağlı ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş ənənə bu gün də uğurla davam etdirilir. Respublika Prezidenti İlham Əliyevin uşaq hüquqlarının müdafiəsi sahəsində atdığı addımlar, Heydər Əliyev Fondunun gördüyü işlər bu ənənələrin davam etməsinin əyani sübutudur. Prezident İlham Əliyevin 2008-ci il 22 dekabr tarixli sərəncamı ilə 2009-cu ilin "Uşaq ili" elan edilməsi də Azərbaycan dövlətinin uşaqlara sonsuz qayğısının bariz təzahürü sayılmalıdır.

Sonra söz körpə fidanlara verilmişdir. Uşaqlar bir-birindən maraqlı şeirlər söyləmiş, mahnılar oxumuş, rəqs və səhnəciklər nümayiş etdirmişlər.

Qazax RİH başçısının köməkçisi, baş münsif Əmin Abıyev, məktəb-liseyin Azərbaycan dili-ədəbiyyat müəllimi Nüşabə Yaqubova, Qazax Dövlət Dram Teatrının direktoru Saqif İskəndərov, şəhər 1 saylı Uşaq Musiqi Məktəbinin direktoru Gülnarə Əliyeva və şəhər 1 saylı klubda mədəni təşkilatçı Sərgül Kazımovanın üzv olduğu münsiflər heyəti hər nominasiya üzrə çıxışları qiymətləndirərək 10 ballıq sistem üzrə müvafiq qiymətlərini vermişlər.

Hər 4 nominasiya üzrə yekun qiymətləndirməyə görə Qazax şəhər 6 saylı körpələr evi-uşaq bağçasının "Günəş" komandası 194 balla "İlin bağçası" adına layiq görülmüşdür. Şəhər 1 saylı körpələr evi-uşaq bağçasının "Zəfər" komandası müsabiqənin ikincisi olmuşdur. Üçüncü yeri isə iki komanda - şəhər 2 saylı uşaq bağçasının "Bənövşə" və şəhər 3 saylı körpələr evi-uşaq bağçasının "Səma" komandaları bölüşmüşlər.

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov qalib olan bağçanın kollektivinə Fəxri Fərman, qiymətli hədiyyələr və pul mükafatı təqdim etmişdir. Digər yer tutan komandalar da müvafiq hədiyyələrlə mükafatlandırılmışlar.

**Xuraman ƏZİMOVA**

## Hüseynbəyli kəndinə yeni asfalt yol çəkilmişdir



***Hüseynbəyli kəndinə çəkilmiş yeni asfalt yolun açılışı olmuşdur. Yolun kənarlarına toplaşmış yüzlərlə kənd sakini bir-birini təbrik edir, ən xoş arzularını bildirirdilər. Bu münasibətlə keçirilən tədbirdə Qazax RİHB Aparatının məsul işçiləri, hüquq-mühafizə orqanlarının, idarə və müəssisələrin rəhbərləri, ictimaiyyətin müxtəlif təbəqələrinin nümayəndələri, mətbuat işçiləri iştirak etmişdir.***

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov açılış mərasimində öz çıxışına təbriklərlə başlamışdır. Qeyd etmişdir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən inşa olunmuş Qazax-Hüseynbəyli avtomobil yolu 1711 nəfər sakinin yaşadığı Hüseynbəyli kəndini rayon mərkəzi ilə birləşdirir. 2,5 km uzunluğunda olan yeni asfalt yol kənddə kənd təsərrüfatının, eləcə də digər sahələrin daha da inkişaf etməsinə xidmət göstərəcəkdir.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədr müavini Əvəz Qocayev rayon rəhbərliyinin təbrikinə qoşularaq kənd sakinlərinə ən xoş arzularını bildirmişdir. Qeyd etmişdir ki, yeni yolun istifadəyə verilməsi dövlətin vətəndaşlara olan diqqət və qayğısının ən bariz nümunəsidir.

Hüseynbəyli kənd sakini Mahirə Abbasova, Əsəd Mahmudov və başqaları ünvanlarına söylənən təbriklərə və xoş arzulara görə təşəkkür etmiş, başda Prezident İlham Əliyev olmaqla Avtomobil Yolları Dövlət Agentliyinin və rayon İcra Hakimiyyəti rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər. Qeyd etmişlər ki, kəndə çəkilən yeni yol bayram ərəfəsində onlara verilən ən böyük hədiyyədir.

Sonra Rəcəb Babaşov və Əvəz Qocayev alqış sədaları altında yolun rəmzi açılışını bildirən qırmızı lenti kəsmişlər.

Yüksək səviyyədə inşa olunmuş yeni yol bütün kənd sakinlərinin ürəyincə olmuşdur.

## Kommuna kəndinə çəkilmiş yeni avtomobil yolu istifadəyə verilmişdir



**Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov açılış münasibətilə keçirilən tədbirdə çıxış edərək yeni avtomobil yolunun istifadəyə verilməsi münasibətilə bütün kənd sakinlərini təbrik etmiş, ən xoş arzularını çatdırmışdır. Qeyd etmişdir ki, bu gün respublikamızda elə bir sahə yoxdur ki, orada tərəqqi, inkişaf olmasın.**

Ölkəmizdə olduğu kimi rayonumuzda da bütün sahələr inkişaf edir, yeni-yeni məktəblər, bağçalar, sosial obyektlər istifadəyə verilir. Rayonumuzdakı kəndlərin əksəriyyətinə son 1 il 7 ay ərzində asfalt yollar çəkilmiş və bu proses davam etməkdədir. Kommuna kəndini Qazax-Quşçu Ayrım kəndi ilə birləşdirən yeni yol deyilənlərə əyani sübutdur.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədr müavini Əvəz Qocayev açılış mərasimində çıxış edərək yeni yolun istifadəyə verilməsi münasibətilə bütün kənd sakinlərini təbrik etmiş, ən xoş arzularını bildirmişdir. Qeyd etmişdir ki, uzunluğu 2,65 km olan yeni yol 1171 nəfər sakinin yaşadığı Kommuna kəndinə xidmət göstərəcək və sakinləri xoş günlərə qovuşduracaqdır. Bildirmişdir ki, "Körpü-Bina-Tikinti" MMC tərəfindən inşa olunmuş avtomobil yolu ən yüksək standartlara cavab verir.

Kommuna kənd sakinlərindən Arif Mirzəliyev, Möhsüm Məmmədov və başqaları söz alaraq bayramqabağı belə bir yüksək səviyyəli yolu onlara bəxş etdiyinə görə Ölkə Başçısına sonsuz təşəkkürlərini çatdırmış, ən xoş arzularını söyləmişlər. Avtomobil Yolları Dövlət Agentliyinin sədri Saleh Məmmədova, rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova kənd sakinləri adından dərin minnətdarlıqlarını bildirmişlər.

## Çaylı kəndinə çəkilmiş yolun açılışı olmuşdur



**Qazax rayonunun Çaylı kəndində Bakı-Tbilisi avtomobil yolunu Qazax-Əskipara yolu ilə birləşdirən avtomobil yolunun açılışı olmuşdur. Yolun kənarları al-əlvan şarlarla bayramsayağı bəzədilmişdi. Əllərində Azərbaycan bayrağı tutmuş yüzlərlə kənd sakini, ziyalılar, ağsaqqallar, məktəblilər açılış mərasiminə toplaşmışdılar.**

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov giriş sözü ilə çıxış edərək yeni avtomobil yolunun istifadəyə verilməsi münasibətilə bütün kənd sakinlərini təbrik etmiş, ən xoş arzularını bildirmişdir. Qeyd etmişdir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə yol tikintisi geniş vüsət almışdır. Bu gün şəhər və rayonlarla yanaşı kəndlərimizə də yüksək keyfiyyətli yollar çəkilir. Çaylı kəndinə çəkilmiş uzunluğu 6 km olan yeni asfalt yol 7836 nəfər sakinin yaşadığı Çaylı kəndinə xidmət göstərəcəkdir.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədr müavini Əvəz Qocayev də kənd sakinlərini təbrik edərək ən xoş istək və arzularını çatdırmışdır. O, ulu öndər Heydər Əliyevin dediyi "Yol iqtisadiyyat, mədəniyyət, həyat deməkdir" sözlərini xatırlatmışdır. Qeyd etmişdir ki, istifadəyə verilən yeni yol kəndlərimizdə iqtisadiyyatın, mədəniyyətin, bir sözlə, bütün sahələrin inkişafına təkan verəcəkdir.

Sonra kənd sakinlərindən Məhəmmədəli Məşədiyev, Qəzənfər Qocayev və başqaları çıxış edərək yolun istifadəyə verilməsinə görə Prezident İlham Əliyevə bütün kənd sakinləri adından öz dərin minnətdarlıqlarını bildirmişlər. Avtomobil Yolları Dövlət Agentliyinin sədri Saleh Məmmədova, Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova sonsuz təşəkkürlərini çatdırmışlar.

**Elçin İSMAYIL**

# "Molla Pənah Vaqif" və "Molla Pənah Vaqif. Biblioqrafiya" kitablarının və kitab sərgisinin təqdimatı olmuşdur



**Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı, Qazax rayon İcra Hakimiyyətinin dəstəyi ilə Azərbaycan Milli Kitabxanasının, Azərbaycan Milli Konservatoriyasının və Beynəlxalq Muğam Mərkəzinin "Sirlər xəzinəsi" adlı birgə layihəsinə əsasən Böyük Azərbaycan şairi Molla Pənah Vaqifə həsr olunmuş ədəbi-bədii musiqili məclis keçirilmişdir. Layihə çərçivəsində akademik Nizami Cəfərovun "Molla Pənah Vaqif" və Milli Kitabxananın nəşr etdiyi "Molla Pənah Vaqif. Biblioqrafiya" kitablarının və kitab sərgisinin təqdimatı olmuşdur.**

Tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin adını daşıyan parka gələrək abidəsi önünə gül dəstələri qoymuş, Heydər Əliyev Mərkəzində dahi şəxsiyyətin həyat və yaradıcılığı ilə tanış olmuşlar.

Sonra qonaqlar Yuxarı Salahlı kəndində M.P.Vaqifin və S.Vurğunun heykəllərini ziyarət etmiş, əziz xatirələrini ehtiramla anmışlar. S.Vurğunun Poeziya Evində olan qonaqlara burada əsaslı şəkildə aparılan təmir işləri barədə ətraflı məlumat verilmişdir.

Sonra "Fəxri qazaxlılar" parkında M.P.Vaqifin və M.V.Vidadinin qoşa abidəsini ziyarət etmişlər. Şəhidlər Xiyabanında memorial önünə gül dəstələri qoymuş, torpaqlarımızın ərazi bütövlüyü uğrunda canından keçmiş Vətən oğul və qızlarının xatirəsini yad etmişlər.

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov ədəbi məclisdə giriş sözü ilə çıxış edərək qonaqları salamlamış, M.P.Vaqif yurdunda görməkdən məmnunluq hissi keçirdiyini diqqətə çatdırmışdır. Sonra geniş məruzə ilə çıxış edərək M.P.Vaqif yaradıcılığından, onun Azərbaycan ədəbiyyatındakı misilsiz xidmətlərindən söz açmışdır. Qeyd etmişdir ki, Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinin keçirilməsi haqqında Respublika Prezidenti İlham Əliyevin Sərəncamı Vaqif irsinin azərbaycançılıq məfkurəsi işığında daha dərindən araşdırılıb öyrənilməsi bu gün də aktuallığını qoruyan və həllini gözləyən mühüm məsələlərdəndir. M.P.Vaqif şeirlərinin və düşüncə tərzinin Azərbaycan ədəbiyyatında özünəməxsus yeri vardır. Bu baxımdan gələcək nəsillər, gənc şairlərimiz onun yaradıcılığından bəhrələnərək ədəbiyyatımızı daha da zənginləşdirməlidirlər.




Ədəbi məclisin aparıcısı, M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının direktoru, Əməkdar mədəniyyət işçisi, professor Kərim Tahirov çıxış edərək keçirilən tədbirin məqsəd və əhəmiyyətindən danışmışdır.

Sonra tədbirdə M.P.Vaqif haqqında AzTV-nin hazırladığı 7 dəqiqəlik film nümayiş olunmuşdur.

Filologiya elmləri doktoru, professor Rüstəm Kamal öz çıxışında qeyd etmişdir ki, Vaqif Şərq poeziyasının bütün klassik formalarından istifadə etmiş və qəzəl, təcnis, müxəmməs, müstəzad, məsnəvi və s. formalarda şeirlər yazmışdır. Şeirlərinin bir qismini aşıq poeziyasından götürülmüş qoşma növündə yazılmış şeirlər təşkil edir. Vaqif yüksək zövq, incə hisslər, dərin və nikbin duyğular şairidir.

Azərbaycan Yazıçılar Birliyi (AYB) Qazax zona filialının sədri, Əməkdar İncəsənət Xadimi, şair Barat Vüsal, AYB Qarabağ bölməsinin sədri, professor Ənvər Əhməd, AZƏRTAC-ın müxbiri, şairə Zərəngiz Dəmirçi Qayalı, şair Zaməddin Ziyadoğlu və başqaları çıxışlarında Vaqifin əsərlərində Azərbaycan xalqının adət və ənənələrinin, yerli xüsusiyyətlərinin özünün parlaq əksini tapdığını vurğulamışlar.

Tədbir boyu M.P.Vaqifin şeirlərindən, qəzəllərindən və qoşmalarından ibarət muğam və təsniflər, aşıq havaları ifa olunmuşdur.

İrəvan Dövlət Azərbaycan Teatrının aktrisası, filologiya üzrə fəlsəfə doktoru Zülfiyyə Eldarqızının ifasında səslənən şeirlər, Respublikanın Əməkdar artisti, Azərbaycan Milli Konservatoriyasının müəllimləri Firuz Səxavətin, xanəndə Vüqar Əliyev ifaları tədbirə toplaşanlar tərəfindən böyük alqışlarla qarşılanmışdır.

Azərbaycan Milli Konservatoriyasının IV kurs tələbələrindən xanəndə Nuranə Şıxəliyevanın tarda Zəfər Əhmədli və kamançada Müşfiq Lətifovun müşaiyəti ilə səsləndirdiyi M.P.Vaqif şeirlərinə bəstələnən mahnılar tədbirə ayrı bir gözəllik bəxş etmişdir.

Gənc aşıq Samir Allahverdiyevin M.P.Vaqif yaradıcılığından söylədiyi şeirlər və sazda ifa etdiyi bir-birindən şən, şux aşıq havaları tədbirə xoş ovqat qatmışdır.

Ədəbi məclis Respublikanın Əməkdar artisti, Firuz Səxavətin ifasında "Torpağa düşdüm" şeirinə bəstələnən mahnı ilə başa çatmışdır.

Tədbir başa çatdıqdan sonra qonaqlar Qazax Tarix-Diyarşünaslıq Muzeyində nümayiş olunan eksponatlarla, tarixi şəxsiyyətlərin, şairlərin həyat və yaradıcılığını əks etdirən stendlərlə tanış olmuş, muzeyin xatirə kitabına öz ürək sözlərini yazmışlar.

# Şairə-jurnalist Zərəngiz Dəmirçi Qayalının yaradıcılıq gecəsi keçirilmişdir

**Qazax rayon İcra Hakimiyyətinin və Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialının birgə təşkilatçılığı ilə AYB-nin və AJB-nin üzvü Zərəngiz Dəmirçi Qayalının anadan olmasının 55 illiyinə həsr edilmiş yaradıcılıq gecəsi keçirilmişdir.**



Tədbir iştirakçıları Şəhidlər Xiyabanına gəlmiş, burada şəhid Vəfa Mansurovanın (Dəmirçioğlunun) xatirəsinə tikilmiş bulağa baxmışlar. Şəhidin bacısı Zərəngiz Dəmirçi Qayalı şəhid bacısına bulaq tikdirdiyinə görə Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova öz adından, ailələri adından öz dərin minnətdarlığını bildirmişdir.

Ədəbiyyat Muzeyində keçirilən tədbirdə iştirakçılar əvvəlcə Qazax rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Göyəzən" qəzetinin xüsusi buraxılışı olan jurnalla və şairənin kitablarından ibarət sərgi ilə tanış olmuşlar.



Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov yaradıcılıq gecəsində çıxış edərək yubilyarı anadan olmasının 55 illiyi münasibətilə səmimi qəlbdən təbrik etmiş, gələcək həyatında daha böyük yaradıcılıq uğurları arzulamışdır. Qeyd etmişdir ki, şairə və jurnalist kimi onun imzası bu gün hər kəsə bəllidir. Dövlətimiz tərəfindən onun əməyinə yüksək qiymət verilmiş, Prezident İlham Əliyevin Sərəncamı əsasında KİV əməkdaşları üçün inşa edilmiş binada mənzillə təmin olunmuşdur.

Tədbirin aparıcısı, Azərbaycan Yazıçılar Birliyinin (AYB) üzvü, şair Mustafa Rasimoğlu Zərəngiz Dəmirçi Qayalının həyat və yaradıcılığı, əldə etdiyi mükafatlar barədə tədbir iştirakçılarına ətraflı məlumat vermişdir.




AYB-nin şöbə müdiri Dayandur Sevgin, AYB Qazax zona filialının sədri, Əməkdar İncəsənət Xadimi Barat Vüsal, Daş Salahlı kənd 1 saylı tam orta məktəbin direktoru Söylü Xəlilova Zərəngiz xanımı səmimi qəlbdən təbrik etmiş, ona ən xoş arzularını bildirmişlər. Şairlərdən Zaməddin Ziyadoğlu, Saqif Qaratorpaq, Səhlədar Hidayətoğlu, Tamella Poladlı, Gülsənəm Cəlili yubilyara həsr etdikləri şeirləri oxumuşlar.

Yaradıcılıq gecəsində aşıqlardan Şahin Süleymanov və Camoy Qurbanov saz havaları üstündə şairənin şeirlərini oxumuşlar. Qazax Dövlət Dram Teatrının aktyorlarından Yusif Qoca və Zəmanə Dərvişova yubilyarın şeirlərini ifa etmişlər. Daş Salahlı kənd 1 və 2 saylı tam orta məktəblərin şagirdlərinin ifasında kompozisiya nümayiş olunmuş, şairənin "Vəfam mənim" poemasından parçalar səsləndirilmişdir.

Gecənin sonunda Zərəngiz Dəmirçi Qayalı çıxış edərək ona göstərilən diqqət və qayğıya, eləcə də saz, söz adamlarına verilən yüksək dəyərə görə Ölkə Başçısı İlham Əliyevə öz dərin minnətdarlığını bildirmişdir. Bu cür yüksək səviyyədə yubiley tədbirinin təşkilinə və xüsusi yubiley jurnalının çap etdirilməsinə görə Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova sonsuz təşəkkürlərini çatdırmış, ailəsi adından öz razılığını bildirmişdir.




# Xalq şairi Osman Sarıvəllinin doğum gününə həsr olunmuş poeziya bayramı keçirilmişdir

**Qazax rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Xalq şairi Osman Sarıvəllinin doğum gününə həsr olunmuş poeziya bayramı keçirilmişdir.**

Poeziya bayramından əvvəl tədbir iştirakçıları İkinci Şıxlı kənd məzarlığına gələrək Xalq şairi Osman Sarıvəllinin qəbrini ziyarət etmişlər. Ruhuna dualar oxumuş, əziz xatirəsini böyük ehtiramla yad etmişlər. Qəbiristanlığın girişində məktəblilər şairin şeirlərini oxumuşlar. Burada Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşovun tapşırığına əsasən məzarlıqda təmir-bərpa işləri aparıldığı və yüksək səviyyəyə çatdırıldığı qeyd edilmişdir.

Sonra tədbir iştirakçıları Eldar Nəsiblinin qəbrini ziyarət etmiş, ruhuna dua oxumuşlar. Məzarı başında "Bura Qazaxdı" şeiri səsləndirilmişdir. Burada da rayon rəhbərliyi tərəfindən təmir işlərinin həyata keçirilməsi qeyd olunmuşdur.

Yuxarı Salahlıda Səməd Vurğunun Poeziya Evində olan qonaqlar dahi şairin heykəlini ziyarət etmiş, muzeylə tanış olmuşlar. Qonaqlara muzeydə əsaslı şəkildə aparılan təmir işləri barədə geniş məlumat verilmişdir.

Sonra poeziya bayramı Ədəbiyyat Muzeyində davam etdirilmişdir. Qonaqlar öncə muzeylə, Xalq şairinin kitablarından ibarət sərgi ilə tanış olmuşlar.

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov poeziya bayramını giriş sözü ilə açaraq tədbir iştirakçılarını və qonaqları salamlamış, bayram münasibətilə tədbir iştirakçılarını səmimi qəlbdən təbrik etmişdir. Osman Sarıvəlli poeziyasının gözəlliyindən söz açmışdır. Qeyd etmişdir ki, "Hər kim yüz il yaşamasa, günah onun özündədir" misralarını milyonları düşündürən sətirə çevirən görkəmli şair Osman Sarıvəlli Azərbaycan ədəbiyyatına böyük töhfələr vermiş, Azərbaycan dilinin inkişafında xüsusi xidmətləri olmuşdur. Düzdür, onun özü də yüz yaşaya bilmədi, lakin yaratdığı əsərlər, qazandığı sevgi heç şübhəsiz, bundan sonra da hələ çox yüz illər yaşayacaq və Osmansevərlər onu xoş xatirələrlə yad edəcəklər.

Sonra Xalq şairinin həyat və yaradıcılığından bəhs edən, onun haqqında söylənmiş qiymətli fikirlərin yer aldığı film nümayiş olunmuşdur.

Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialının sədri, Əməkdar İncəsənət Xadimi Barat Vüsal Xalq şairinin həyatı, yaradıcılığı haqqında tədbir iştirakçılarına ətraflı məlumat verərək bildirmişdir ki, Osman Sarıvəllinin ilk kitabı 1934-cü ildə "Dəmir sətirlərim" adı altında oxuculara təqdim edilmişdir. Xalqından, elindən, yurdundan, çayından, daşından ilham alan şairin yazdığı hər bir sətir Azərbaycan poeziyasının inkişafında misilsiz rol oynamışdır. Yurdumuzun gözəllikləri, folklorumuzun müdrikliyi, klassik poeziyamızın incəlikləri Osman Sarıvəlli yaradıcılığının mənəvi qidasına çevrilmişdir.

Poeziya bayramında akademik Teymur Bünyadov, Milli Məclisinin deputatlarından akademik Nizami Cəfərov və Ülviyyə Ağayeva, "Qazax Xeyriyyə" İctimai Birliyinin sədri İlham Pirməmmədov, filologiya elmləri doktoru Rüstəm Kamal, şair, "Şur" nəşriyyatının direktoru Musa Ələkbərli, şair-jurnalist Məmməd Əfşan, filologiya elmləri üzrə fəlsəfə doktoru Natəvan Dəmirçioğlu, AYB-nin əməkdaşı Gülamayıl Murad çıxış edərək Osman Sarıvəlli yaradıcılığı haqqında öz ürək sözlərini söyləmiş, şairlə bağlı xatirələrini danışmışlar.

Poeziya bayramında tədbir boyunca aşıqlardan Camoy Qurbanov, Hüseyn Kəmərli, Samir Allahverdiyev, Şahin Süleymanov saz havaları üstündə şairin şeirlərini oxumuşlar.

Qazax Dövlət Dram Teatrı aktyorlarından Zəmanə Dərvişova və Hacı Hacıyevin ifasında "Gətir oğul, gətir" poemasından bir parça ifa olunmuşdur.

M.Hüseyn adına məktəb-lisey və İkinci Şıxlı kənd tam orta məktəbin şagirdləri tərəfindən Xalq şairinin bir-birindən gözəl şeirləri səsləndirilmişdir.

Xalq şairinin oğlu, bu gün Türkiyədə çalışan professor Babək Qurbanov çıxış edərək demişdir: "Mən şairin oğlu və bir elm adamı kimi Ölkə Başçısı İlham Əliyev cənablarına sonsuz təşəkkürümü çatdırıram ki, şairlərimizə, yazıçılarımıza, ədəbiyyat adamlarına hər zaman böyük önəm verir, diqqət və qayğı göstərir. Atam Osman Sarıvəllinin həyatına, yaradıcılığına həsr olunmuş poeziya bayramının keçirilməsi bunun ən bariz nümunəsidir".

B.Qurbanov atasına verilən yüksək dəyərə və bu cür yüksək səviyyədə tədbirin keçirilməsinə görə Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova öz adından, ailəsi adından dərin minnətdarlığını bildirmişdir.

Poeziya bayramı Eldar Nəsiblinin "Bura Qazaxdı" şeirinin sədaları altında başa çatmışdır.

# Qazaxda "Sülh istəyirik" adlı rəsm sərgisi təşkil olunmuşdur



**Mədəniyyət və Turizm Nazirliyi, Qazax rayon İcra Hakimiyyəti, Azərbaycan Dövlət Rəsm Qalereyası, "Yalnızca Barışa Tarafız" Birliyi və Xətai Sənət Mərkəzinin birgə təşkilatçılığı ilə "Sülh istəyirik" adlı rəsm sərgisi təşkil olunmuşdur. Sərgi layihə rəhbəri, gənc rəssam Akif Əmirovun təşəbbüsü ilə keçirilmişdir.**

Sərgi başlamazdan əvvəl qonaqlar Qazax rayonunun tarixi və görməli yerləri ilə tanış olmuşlar. Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov "Sülh istəyirik" adlı layihənin iştirakçılarını qəbul edərək həyata keçirilən tikinti-quruculuq işlərindən, rayonun tarixindən, mədəniyyət abidələrindən ətraflı söz açmışdır.

Xalq rəssamı Arif Hüseynov, Dövlət Rəsm Qalereyasının nümayəndəsi Vaqif Muğalov, Xətai Sənət Mərkəzinin direktoru Zahid Əvəzov, Əməkdar İncəsənət Xadimi Ziyadxan Əliyev, Dövlət Rəsm Qalereyasında böyük elmi işçisi Rəna Rəcəbova və başqaları çıxış edərək səmimi qəbula və qonaqpərvərliyə görə rayon rəhbərliyinə öz dərin minnətdarlıqlarını bildirmişlər. Sonra İcra Başçısı rəssam Nəcməddin Hüseynova Fəxri Fərman, qonaqlara isə hədiyyələr təqdim etmişdir. Qonaqlar da öz növbəsində İcra Başçısına rəsmlərdən ibarət kitablar hədiyyə etmişlər.

Sonra Qazax Dövlət Rəsm Qalereyasında "Sülh istəyirik" adlı rəsm sərgisi öz işinə başlamışdır.

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov sərginin açılışı münasibətilə təşkil olunan tədbirdə giriş sözü ilə çıxış edərək dövlətimiz tərəfindən rəssamlara, xüsusilə də gənc rəssamlara göstərilən diqqət və qayğıdan söz açmışdır. Bildirmişdir ki, Azərbaycan xalqı sülhsevər xalqdır və biz bu sərgini keçirməklə bütün dünyanı sülhə, əmin-amanlığa səsləyirik.

Gənc rəssam, layihənin rəhbəri Akif Əmirov çıxış edərək "Sülh istəyirik" adlı rəsm sərgisinin təşkilindən, həyata keçirilən layihənin məqsəd və əhəmiyyətindən söz açmışdır. Bildirmişdir ki, layihənin Qazaxda həyata keçirilməsinin əsas məqsədi rayonun sərhəd bölgəsində yerləşməsi və rayon rəhbərliyi tərəfindən ona dəstək verilməsidir.

Xalq rəssamı, Tərəqqi medalı laureatı Qəyyur Yunus, Azərbaycan Rəssamlar İttifaqının katibi, Xalq rəssamı Ağəli İbrahimov, Xalq rəssamı Arif Hüseynov, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Mədəniyyət və İncəsənət Universitetinin müəllimi Nəzakət Əhmədova, rəssam Qafar Sarıvəlli çıxış edərək sərgidə nümayiş olunan əsərlər barədə öz fikirlərini bildirmiş, gənc rəssamlara yaradıcılıq uğurları arzulamışlar.

Tədbirdə sərginin təşkilinə göstərdiyi dəstəyə görə bir qrup təşkilatçıya təşəkkürnamələr, rəsmləri nümayiş etdirilən gənc rəssamlara isə sertifikatlar verilmişdir.

Sonra tədbir iştirakçıları sərgiyə baxmışlar. Sərgidə Nəcməddin Hüseynov, Afiq Məmmədov, Səyyad Məmmədov, Ramiz Məmmədov, Murad Böyükkişiyev, Yusif Əliyev, Aynurə Mustafayeva, Akif Əmirovun əsərləri ilə yanaşı, məktəb şagirdlərinin, Uşaq-Gənclər İnkişaf Mərkəzinin dərnək üzvlərinin, Qazax Dövlət Sosial-İqtisadi Kolleci tələbələrinin və Qazax Dövlət Rəsm Qalereyası şagirdlərinin əl işləri sərgilənmişdir. Ümumilikdə, 60 rəsm əsəri və 10 heykəltəraşlıq işi nümayiş olunmuşdur.





# Rayonumuzda 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı qeyd olunmuşdur

**31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Qazax rayonunda geniş hazırlıq işləri aparılmış, şəhər bayramsayağı bəzədilmişdir. Bununla yanaşı, rayonun bütün idarə, müəssisə və təşkilatlarında bayramla əlaqədar silsilə tədbirlər təşkil olunmuşdur.**

Qazaxda keçirilən bayram tədbiri Şəhidlər Xiyabanını ziyarətlə başlamışdır. Tədbir iştirakçıları torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarından keçmiş Vətən oğul və qızlarının əziz xatirəsini yad etmiş, memorial önünə gül dəstələri qoymuşlar.

Sonra tədbir bayram süfrəsi ətrafında davam etdirilmişdir. Tədbirdə hüquq-mühafizə orqanlarının rəhbərləri, təhsil, mədəniyyət, səhiyyə və digər sahələrin əmək kollektivləri, veteran və gənclər təşkilatlarının üzvləri, ictimaiyyətin müxtəlif təbəqələrinin və KİV nümayəndələri iştirak etmişdir.

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov bayram tədbirində çıxış edərək Respublika Prezidenti İlham Əliyevi, birinci vitse-prezident Mehriban xanım Əliyevanı, xalqımızı və rayon sakinlərini bayram münasibətilə ürəkdən təbrik etmiş, hamıya möhkəm cansağlığı, xoş əhval-ruhiyyə, bayram sevinci və yeni-yeni uğurlar arzulamışdır. Bildirmişdir ki, qədim tarixə malik xalqımız Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramını tarixi köklərinə xas olan ən xoş amal və duyğularla keçirir. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə elan edilmiş milli-mənəvi birliyə çağırış günü soydaşlarımızın azərbaycançılıq ideyası əsasında sıx birləşməsi prosesinin başlanğıcı qoyulmuşdur.

Qeyd etmişdir ki, yola saldığımız 2017-ci il respublikamız, o cümlədən rayonumuz üçün uğurlu olmuşdur. Bunu ölkəmizin ictimai-siyasi həyatında və həyata keçirilən genişmiqyaslı tikinti-quruculuq və abadlıq işlərindən də görmək olar.



Bu il bizim üçün hər bir sahədə uğurlu olmuşdur. Elə bir sahə olmaz ki, diqqətdən kənarda qalsın. Bunu istər sosial obyektlərin inşası, istər kənd təsərrüfatının inkişafı, istərsə də təhsil, səhiyyə, idman sahəsində əldə etdiyimiz nailiyyətlər söyləməyə əsas verir.

İcra Başçısı bildirmişdir ki, 2017-ci il həm də Qazax rayonu üçün tikinti-quruculuq ili kimi də yadda qaldı. "Azərxalça" ASC tərəfindən inşa edilən və açılışa tam hazır olan xalça fabriki, rayonumuzda inşa edilən 145 çarpayılıq Mərkəzi Xəstəxana binası, əsaslı şəkildə təmir edilən Kosalar, Xanlıqlar, Daş Salahlı, Cəfərli kəndlərindəki uşaq bağçaları, bu günlərdə Qazax şəhərində açılışını etdiyimiz 100 yerlik 1 saylı körpələr evi-uşaq bağçası 2017-ci ilin uğurlu il olmasının ən bariz nümunəsidir.

Bu yaxınlarda 3 kəndin - Çaylı, Kommuna və Hüseynbəyli kənd yollarının açılışını etdik. Qazaxbəyli, Ürkməzli, Xanlıqlar, Alpout, Kəmərli, Orta Salahlı, Bala Cəfərli, Ağköynək, Qarapapaq, Çaylı, Kommuna kəndlərinə içməli su çəkildi. Daş Salahlıda isə bu proses başa çatmaq üzrədir.

Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov çıxışının sonunda bir daha rayon sakinlərini, tədbir iştirakçılarını səmimi qəlbdən təbrik etmiş, ölkəmizin, eləcə də Qazaxımızın çiçəklənməsi naminə görəcəkləri işlərdə uğurlar arzulamışdır.

Sonra tədbir iştirakçılarından şəhər 5 saylı tam orta məktəbin direktoru Nəsibə Tağıyeva, 1 saylı tam orta məktəbin direktoru Bəsti Ələkbərova, Xanlıqlar kənd tam orta məktəbin biologiya müəllimi, Əməkdar müəllim Xatın Hüseynxanova və Birinci Şıxlı kəndli-fermer təsərrüfatı direktorunun birinci müavini Səfurə Vəliyeva və başqaları çıxış edərək 2017-ci ildə qazanılmış uğurlardan danışmış, nailiyyətlərdən söz açmışlar. Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşovu "İlin Başçısı" seçilməsi münasibətilə səmimi qəlbdən təbrik edərək ən xoş arzularını bildirmişlər.

Tədbir aşıqların, müğənnilərin ifasında səslənən bir-birindən şən, şux mahnı sədaları altında davam etmişdir.

***

Qazax rayonunda yeni il münasibətilə bayram şənliyi keçirilmişdir. Qazax rayon İcra Hakimiyyəti başçısının birinci müavini Məmməd Alıyev giriş sözü ilə çıxış edərək Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşovun adından bütün rayon sakinlərini təbrik etmiş, ən xoş arzularını bildirmişdir.

Şaxta baba ilə Qar qızın şənliyə gəlməsi tədbirə yeni bir rəng qatmışdır. Uşaqlar onları dövrəyə alıb rəqs etmiş, şeir oxumuşlar.

"Göyəzən" instrumental ansamblının solistləri bir-birindən şən, şux mahnılar ifa etmişlər. Aşıqların ifasında isə qədim el havaları səsləndirilmişdir. Bayram şənliyində musiqi nömrələri bir-birini əvəz etmişdir.

# "Qazax - Xidmət etdiyin diyar" kitabının təqdimatı keçirilmişdir



**Qazaxdakı N saylı hərbi hissədə "Qazax - Xidmət etdiyin diyar" kitabının təqdimatı keçirilmişdir. Təqdimat mərasimində Qazax RİHB Aparatının məsul işçiləri, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin əməkdaşları, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, məktəb direktorları, ziyalılar, ağsaqqallar, aşıqlar, KİV nümayəndələri iştirak etmişdir.**

Azərbaycan Respublikası Müdafiə Nazirinin müşaviri Abdulla Qurbani çıxış edərək "Qazax - Xidmət etdiyin diyar" kitabından söz açmışdır. Bildirmişdir ki, Qazax rayon İcra Hakimiyyətinin dəstəyi ilə işıq üzü görən kitab-albomda Respublika Prezidenti İlham Əliyevin Qazaxa səfərləri, rayonun tarixi, dünəni, bu günü, yaradıcı insanları, tarixi abidələri, Milli Qəhrəmanları, şəhidləri, hərbiçiləri, tarixi şəxsiyyətləri, rayonda inşa edilmiş sosial yönümlü obyektləri haqqında xronoloji məlumatlar və şəkillər dərc edilmişdir.

Qeyd etmişdir ki, nəfis tərtibatda nəşr olunmuş bu kitab-albom Qazax rayon İcra Hakimiyyətinin və qədirbilən qazaxlıların rayonun müdafiəsində mərdliklə dayanan Vətən əsgərlərinə hədiyyəsidir.

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov Qazaxda "Ordumuz-qürurumuz, xalqımız-dayağımız" devizi altında təşkil olunmuş möhtəşəm tədbirdən söz açaraq bildirmişdir ki, həmin ümumxalq tədbirində xalqımız ordu ilə, ordumuz isə xalqla bir və həmrəy olduğunu bir daha nümayiş etdirdi. Azərbaycanda ilk dəfə keçirilən bu pilot layihə qazaxlıların orduya həmişə dəstək olduğunu əyani şəkildə göstərdi.

İcra Başçısı ümidvar olduğunu bildirmişdir ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında qüdrətli Azərbaycan Ordusu işğal altında olan əzəli torpaqlarımızı tezliklə işğaldan azad edəcək və Vətənimizin ərazi bütövlüyü təmin olunacaqdır.

Sonra Rəcəb Babaşov "Qazax - Xidmət etdiyin diyar" kitabını tədbirdə iştirak edən hərbiçilərə, müharibə veteranlarına və ağsaqqallara hədiyyə etmişdir.

Böyük Vətən Müharibəsi veteranı Xanqulu Süleymanov, Əməkdar İdman Ustası Ramiz Tağıyev, el ağsaqqalı Mustafa Mahmudov, şəhid atası Qurban Orucov, Əməkdar müəllim Xatın Hüseynxanova, AYB Qazax zona filialının sədri, Əməkdar İncəsənət Xadimi, şair Barat Vüsal, N saylı hərbi hissənin komandiri Fuad Ələkbərov, AYB-nin üzvü, şair, Mustafa Rasimoğlu çıxış edərək Qazaxın düşmən qarşısında bir sipər, qala olduğundan söz açmış, "Ordumuz-qürurumuz, xalqımız-dayağımız" devizi altında keçirilmiş tədbirin əhəmiyyətini yüksək qiymətləndirmişlər.

Aşıqlardan Camoy Qurbanov və Samir Allahverdiyev Vətənə, orduya həsr olunmuş mahnılar ifa etmişlər.

Sonra rayon rəhbərliyi N saylı hərbi hissədə yaradılmış nümunəvi şəraitlə yaxından tanış olmuş, əsgər yataqxanalarına, yeməkxanaya, əsgərlərin xidmət etdiyi sahələrə baxmışdır. İcra Başçısı əsgərlərlə birlikdə yemək süfrəsi ətrafında səmimi söhbət etmişdir.

Daha sonra Rəcəb Babaşov düşmənlə sərhəddə yerləşən ön cəbhədə olaraq burada xidmət edən əsgərlərlə görüşmüşdür. Hərbiçilər qarşısında çıxış edərək onlara hərbi xidmətdə uğurlar arzulamış, Vətənin keşiyində ayıq-sayıq dayanmağa çağırmışdır.

Xidmətdə fərqlənən bir qrup hərbiçiyə "Qazax - Xidmət etdiyin diyar" kitabını hədiyyə etmişdir.

Sonda ön cəbhədə xidmət edən əsgərlərlə çay süfrəsi arxasında səmimi söhbət aparmışdır.

# Qazaxdakı çoxmənzilli binalar öz görkəmini dəyişib



**Qazax şəhərində çoxmənzilli binalar əsaslı şəkildə təmir edilərək yenidən qurulur, müasir və gözoxşayan görkəmə salınaraq onlara ikinci həyat verilir. Bunlardan biri də Heydər Əliyev prospektində yerləşən 60 və 64 saylı beşmərtəbəli binalardır.**

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşovun göstərişinə əsasən hərbiçi ailələrinin yaşadıqları bu binalar əsaslı şəkildə təmir olunmuş, şəhərin ən abad və müasir binalarından birinə çevrilmişdir. Binanın dam örtüyü yenidən vurulmuş, fasad hissəsi təmir olunaraq rənglənmişdir. Eyni zamanda, binaların dəhlizləri, giriş və çıxışları, pilləkanları, məhəcərləri, balkonları köklü şəkildə təmir olunmuş, rənglənmişdir.

Təmir-bərpa işləri başa çatan bu binalarda rayon rəhbərliyi ilə sakinlərin görüşü keçirilmişdir. Görüşdə idarə, müəssisə və təşkilat rəhbərləri, ağsaqqallar, ziyalılar, ictimaiyyətin müxtəlif təbəqələrinin nümayəndələri, rayonda fəaliyyət göstərən kütləvi informasiya vasitələrinin əməkdaşları iştirak etmişdir.

Binanın həyətində keçirilən görüşdə sakinlər İcra Başçısını böyük səmimiyyət və mehribanlıq hissləri ilə, alqışlarla qarşılamışlar.

Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov görüşdə çıxış edərək hərbiçilərə göstərilən dövlət qayğısından danışmışdır. Qeyd etmişdir ki, Azərbaycan Ordusu dünyanın ən qüdrətli ordularından biri olduğu kimi onun hərbiçisi də ən yaxşı şəraitdə yaşamalıdır. Bunu nəzərə alaraq mən hər iki binanın yüksək səviyyədə təmir olunması barədə göstəriş verdim və artıq bina başdan-başa, əsaslı şəkildə təmir olunmuş və yenidən qurulmuşdur. Bu, belə də olmalıdır. Çünki bizim hərbiçilərimiz, onların ailələri ən yaxşı şəraitdə yaşamalıdır. Bunun üçün dövlətimiz tərəfindən lazım gələn bütün tədbirlər görülür.

Müdafiə Nazirliyinin müşaviri Abdulla Qurbani çıxış edərək Qazax rayonunda ordu ilə xalqın birliyindən söz açmışdır. Qeyd etmişdir ki, Qazaxda "Ordumuz-qürurumuz, xalqımız-dayağımız" devizi altında keçirilmiş böyükmiqyaslı tədbir buna əyani sübutdur. Sonra A.Qurbani yenicə çapdan çıxmış "Ordumuz-qürurumuz, xalqımız-dayağımız" adlı kitabı binanın sakini olan ağ saçlı anaya təqdim etmişdir.

Sakinlərdən Rəfael Adıgözəlov, Rəmziyyə Məmmədova, Nəzakət İsmayılova, Surxay Xəlilov və başqaları söz alaraq hərbiçi ailələrinə diqqət və qayğı göstərdiyinə, yaşadıqları binaları əsaslı şəkildə təmir etdirdiyinə görə Respublika Prezidenti İlham Əliyevə öz dərin minnətdarlıqlarını bildirmişlər. Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova tükənməz təşəkkürlərini çatdırmışlar. 80 ailənin yaşadığı bu binaların sakinləri ehtiram dolu ürək sözlərini söyləmişlər.

**Elçin İSMAYIL**

# İdmançılarımızın qələbəsi bizi hər zaman sevindirir




**Qazax rayon İcra Hakimiyyətində müxtəlif yaş qrupları üzrə bu ilin noyabr və dekabr aylarında ölkə və beynəlxalq miqyaslı yarışlarda yüksək nailiyyətlər qazanan rayon idmançıları ilə görüş keçirilmişdir.**

Görüşdə Samux şəhərində keçirilən ağır atletika üzrə respublika yarışlarının IV mərhələsində, Bakı şəhərində keçirilən milli karate üzrə yeniyetmə və gənclər arasında XVIII respublika birinciliyində, alpaqut döyüş növü üzrə dünya kubokunda, Sumqayıt şəhərində keçirilən karate üzrə Xəzər və Qara dəniz ölkələri çempionatında, sərbəst güləş üzrə böyüklər arasında Azərbaycan çempionatında qalib olan idmançılar və məşqçi müəllimlər, KİV nümayəndələri iştirak etmişdir.

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov idmançıları və məşqçi müəllimləri salamlamış, qazandıqları uğurlara görə ən xoş arzularını çatdırmışdır. Respublika Prezidenti İlham Əliyev, respublikanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən idmana və idmançılarımıza göstərilən diqqət və qayğıdan söz açmışdır. Qeyd etmişdir ki, siz idmançıların əldə etdikləri nailiyyətlər, ən əsası da üçrəngli Azərbaycan bayrağını daim yüksəklərdə dalğalandırmağınız, milyonlar qarşısında uca zirvələrə yüksəltməyiniz bizləri çox sevindirir.

Məşqçilərdən Nizami Qasımov, Rayət Abdalov və Vüqar Həsənov çıxış edərək iştirak etdikləri yarışlar barədə ətraflı məlumat vermiş, keçirilən görüşün əhəmiyyətindən söz açmışlar. Qeyd etmişlər ki, sizin biz idmançılara verdiyiniz dəyər bizi daha da ruhlandırır, daha böyük nailiyyətlər qazanmağa sövq edir. Biz idmançılar da bizim əməyimizə verilən bu yüksək qiymətə görə bütün idmansevərlər adından sizə öz dərin minnətdarlığımızı bildiririk.

İdmançılardan Aydın Şəfizadə, Qasım İsmayılov, Nurlan Məmmədzadə, Amil Osmanov, Ayişə Əliyeva, Şərif Qasımov, Coşqun Mustafayev, Fərid Məmmədov, Əbdülmətin İsmayılov, Nurlan Mustafayev, Aytən Əliyeva, Həsənəli Həsənov, Vüqar Yaqubov, Vüsal Yaqubov, Rəvan Məmmədkərimov, Mustafa Mansurov, Göyüş Nurhan Ramil, Emin Namazov və Pənah İlyaslı çıxış edərək iştirak etdikləri yarış barədə öz təəssüratlarını bölüşmüş, idmançılara göstərdikləri diqqət və qayğıya görə Respublika Prezidenti İlham Əliyevə bütün idmançılar adından öz dərin minnətdarlıqlarını bildirmişlər.

Sonda Qazax rayon İcra Hakimiyyəti tərəfindən qalib idmançılara qiymətli hədiyyələr təqdim olunmuşdur.

**Nüşabə HÜSEYNOVA**

# Qazaxbəyli və Orta Salahlı kəndlərinə içməli su çəkilmişdir

**Su çəkmək, yol salmaq, körpü tikmək qədim zamanlardan ən savab iş, ən xeyirxah əməl sayılmışdır. Ad qazanmaq istəyirsənsə, "Su çək, körpü tik, yol sal" demişdir babalarımız.**



Fəaliyyətə başladığı ilk gündən bu xeyirxah əməlləri özünün gündəlik işinə çevirən Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov bu sahədə yadda qalası xeyli işlər görmüşdür. Rayon rəhbərliyi öz xeyirxahlığı ilə minlərlə kənd sakininə unudulmaz sevincli anlar yaşatmış, uzun illərdən bəri mövcud olan su problemlərini aradan qaldırmışdır. Artıq Qazaxbəyli, Ürkməzli, Xanlıqlar, Alpout, Kəmərli, Orta Salahlı, Bala Cəfərli, Ağköynək, Qarapapaq, Çaylı, Kommuna kəndlərinə içməli su çəkilmişdir. Daş Salahlıda isə bu proses başa çatmaq üzrədir.

21 dekabr günü Qazaxbəyli və Orta Salahlı kənd camaatının yaddaşından uzun illər silinməyəcəkdir. Məhz 2017-ci ilin bu günündə hər iki kəndə içməli su çəkilmişdir.

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov Qazaxbəyli kəndinə içməli su çəkilməsi münasibətilə keçirilən tədbirdə çıxış edərək bildirmişdir ki, ötən il kəndə su çəkmək məsələsi gündəmə gələndə çoxları buna inanmırdı. Amma sentyabr ayının 1-də bu problem öz həllini tapdı və yüz ildən bəri yaranmış problem 5 gündə həll olundu. Bu il isə kənd investisiya layihəsi əsasında 6 km uzunluğunda kəndin bütün hər yerinə içməli su xətti çəkilmişdir. 1 ədəd 50 tonluq, 2 ədəd isə 5 tonluq su çənləri qoyulmuşdur. Kəndin 12 yerində bulaq tikilmiş, 16 yerində isə su siyirtməsi çəkilmişdir. Beləliklə, kənddəki 240 evin su problemi birdəfəlik öz həllini tapmışdır.

Kənd ağsaqqallarından Yasin Qasımov, Məmməd Hüseynov, Nazim Xəlilov və başqaları çıxış edərək kəndin içməli su ilə tam təmin olunmasına görə Prezident İlham Əliyevə öz dərin minnətdarlıqlarını bildirmişlər. Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova isə kənd sakinlərinə göstərdiyi diqqət və qayğıya görə sonsuz təşəkkür etmişlər.

Həmin gün eyni sevinc hisslərini Orta Salahlı kənd sakinləri də yaşamışlar. Bu kəndə də 5,3 km uzunluğunda içməli su xətti çəkilmişdir. Kəndin ayrı-ayrı küçələrində 11 bulaq tikilmiş, 9 yerə isə su siyirtməsi qoyulmuşdur. İndi çəkilmiş yeni bulaqlardan göz yaşı kimi dumduru su axır. Bununla da 300-ə yaxın ailənin su problemi rayon rəhbərliyinin diqqət və qayğısı sayəsində öz müsbət həllini tapmışdır.

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov bu sevincli gün ilə əlaqədar təşkil olunmuş tədbirdə çıxış edərək bildirmişdir ki, hər iki kəndə su çəkilməsi ölkə başçısının qarşıya qoyduğu vəzifələrin Qazaxda yerinə yetirilməsinin əyani göstəricisidir.

Kəndin ağsaqqallarından Nəbi Murğuzov, Nəsib Ayvazov, Nəbi Babacanov, Aslan Məmmədov söz alaraq bu günün, eləcə də Rəcəb Babaşovun adının kəndin tarixinə əbədi yazıldığını qeyd etmişlər.

Beləliklə, Qazaxın daha 2 kəndində əhalinin su həsrətinə son qoyulmuşdur. Ömrün uzun olsun, su çəkən.

**Elçin İSMAYIL**

## İTMİŞDİR

Kapitan Məmmədov Nizami Şahin oğluna verilmiş MN № 0038322 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız hesab olunsun.

Baş leytenant Mazanov Elvin Ramazan oğluna verilmiş MN № 0043282 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız hesab olunsun.

Mərhum Abdullayev Məmmədcəfər Allahverdi oğlunun adına verilmiş 857 saylı Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Kapitan Salmanov Ağadadaş Hətəm oğluna verilmiş MN № 0030632 nömrəli, 2005-ci il tarixli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız hesab olunsun.

Muxtarov Xəyal Talış Abdullayev oğlunun adına verilmiş məcburi köçkün vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Hüseynli Əli Həsən oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

# Əlillərə qayğı diqqət mərkəzindəndir

**Qazax rayon İcra Hakmiyyətinin təşkilatçılığı ilə Beynəlxalq Əlillər Günü münasibətilə tədbir keçirilmişdir. Tədbirdə Böyük Vətən Müharibəsi əlilləri, Qarabağ müharibəsi qaziləri, rayonda fəaliyyət göstərən əlil cəmiyyətlərinin üzvləri iştirak etmişdir.**

Tədbir iştirakçıları Şəhidlər Xiyabanına gələrək memorial önünə gül dəstələri düzmüş, Vətənin bütövlüyü uğrunda canından keçən Vətən oğul və qızlarının xatirələrini yad etmişlər.



Sonra keçirilən tədbirdə Qazax rayon İcra Hakimiyyəti başçısının birinci müavini Məmməd Alıyev çıxış edərək Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşovun adından Beynəlxalq Əlillər Günü münasibətilə bu qəbildən olan insanları səmimi qəlbdən təbrik etmişdir. Bildirmişdir ki, BMT-nin təşəbbüsü ilə dünya miqyasında keçirilən Beynəlxalq Əlillər Günü ümummilli lider Heydər Əliyevin sərəncamı ilə 1994-cü ildən etibarən Azərbaycanda da geniş şəkildə qeyd olunur. Ölkəmizdə əlillərin sosial müdafiəsi ilə bağlı həyata keçirilən genişmiqyaslı tədbirlərin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Əlillərin, şəhid ailələrinin və müharibə veteranlarının sosial müdafiəsi Ölkə Prezidentinin daim diqqət mərkəzindədir. Bu gün ölkəmizdə şəhid ailələri, Qarabağ müharibəsi və Çernobıl əlilləri dövlət qayğısı ilə əhatə olunmuşlar. Qazax rayonunda da bu qəbildən olan insanlar diqqət mərkəzində saxlanılır.

Tədbirdə bildirilmişdir ki, hazırda rayonda 6 min 337 əlil var. 378 nəfər rayon sakini isə Qarabağ müharibəsi zamanı əlil olmuşdur. 2015-ci il yanvarın 1-ə qədər növbədə olanların hamısı avtomobillə təmin olunmuşdur. 25 nəfər isə hazırda avtomobil növbəsindədir.

Azərbaycan Lal-Karlar Cəmiyyətinin Ağstafa-Qazax rayonlararası təşkilatının sədri Novruz Həsənov, Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyi Qazax rayon şöbəsinin sədri Xasay Balayev, Silahlı Qüvvələrin Ehtiyatda olan Zabitlər Konfederasiyası Qazax rayon şöbəsinin sədri Baxış Hüseynov, ehtiyatda olan gizir Natiq Mehtiyev və başqaları tədbirdə çıxış edərək bildirmişlər ki, son 1 il 7 ay ərzində rayonda yaşayan Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin sosial şəraitinin yaxşılaşdırılması istiqamətində xeyli işlər görülmüşdür. Çıxış edənlər əlillərin sosial müdafiəsi istiqamətində həyata keçirilən tədbirlərə, onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə bütün əlillər adından öz dərin minnətdarlıqlarını bildirmiş, rayon rəhbərliyinə razılıqlarını ifadə etmişlər.

Tədbir bayram süfrəsi ətrafında konsert proqramı ilə davam etmişdir.

**Nüşabə HÜSEYNOVA**




# "Mobil Səyyar ASAN xidmət" Qazaxda 8324 nəfərə xidmət göstərmişdir

**"Mobil Səyyar ASAN xidməti"nin nümayəndələri texnika ilə təchiz olunmuş xüsusi avtobusla əhaliyə səyyar xidmətlərin göstərilməsi məqsədilə 2017-ci ilin dekabrın 7-dən 28-dək Qazax rayonunda olmuşdur. Rayon sakinlərinə şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi, notariat fəaliyyəti, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı, doğumun qeydə alınması, nikahın qeydə alınması və funksional yardımçı xidmətlər göstərilmişdir.**

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin səyyar xidmətlərin təşkili şöbəsinin baş məsləhətçisi Fəda Abbasov bildirmişdir ki, rayonda fəaliyyət göstərdikləri müddət ərzində xidmətə 8373 nəfər vətəndaş müraciət etmişdir. Onlardan 8324 nəferinə müxtəlif sahələr üzrə xidmət göstərilmişdir. Şəhərlə yanaşı olaraq Xidmətin əməkdaşları kəndlərdə olmuş, sakinlərə səyyar xidmət etmişlər. Belə ki, rayonun sərhəd kəndləri olan Qaymaqlı, Aslanbəyli, Kəmərli, Alpout, Fərəhli, Abbasbəyli, Məzəm, Quşçu Ayrım və işğal altında olan Qızıl Hacılı kəndlərinin sakinlərinə yaşadıqları ərazidə xidmət göstərilmişdir. Eyni zamanda Yuxarı Salahlı, Birinci və İkinci Şıxlı kəndlərinin sakinləri də səyyar xidmətdən yararlanmışlar.

Səyyar qəbullar zamanı isə 399 kənd sakini müraciət etmişdir ki, onların da 396 nəfəri Xidmətdən istifadə etmişdir.

Dövlət xidmətlərinin vətəndaşlara daha rahat, yeni və innovativ üsullarla təqdim edilməsi, vətəndaşlar üçün əlçatanlığın təmini və vətəndaş məmnunluğuna nail olunması məqsədilə həyata keçirilən Səyyar xidmətdən rayon sakinləri razı qalmışlar.

**Xuraman ƏZİMOVA**

Baş redaktor: ELÇİN İSMAYIL

TƏSİSÇİ: QAZAX RAYON İCRA HAKİMİYYƏTİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

ÜNVAN: QAZAX ŞƏHƏRİ, H.Z.TAĞIYEV KÜÇƏSİ 20 TELEFON: 5-02-00, (baş redaktor) 5-12-27 (şöbələr) MOB: (055) 621-03-53

KAPİTAL BANK BANK HESAB № AZ69AİİB38060019443660233136 VÖEN: 4200134061 KOD: 200361 QEYDİYYAT №442 TİRAJ:1200 SİFARİŞ: 114

Məqalələrdəki faktlara görə müəlliflər cavabdehdir. Əlyazmalar geri qaytarılmır.

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Foto: Fəqan MƏHƏRRƏMOV